https://doi.org/10.59849/3006-1342.2025.3.65
UOT 37 (479.24)

*Sədaqət Abdul qızı Fətullayeva*
*Sumqayıt Dövlət Universiteti,*
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*
*Dissertant*
*E-mail*: *sedaqet.fatullayeva@sdu.edu.az*

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN MAARİFÇİLİYİNİN FORMALAŞMASI VƏ DİLİN SİYASİ ŞÜURUN ƏSAS VASİTƏSİ KİMİ ROLU

*Məqalədə XX əsrin əvvəllərində Azərbaycan maarifçiliyinin formalaşma prosesi, onun ideya əsasları və dilin siyasi şüurun inkişafındakı rolu tədqiq olunur. Araşdırma göstərir ki, Azərbaycan maarifçiliyi milli kimliyin, ictimai təfəkkürün və sosial şüurun formalaşmasında mühüm mərhələ olmuşdur. Qərb və yerli müəlliflərin dilin ideoloji və ictimai təsiri ilə bağlı nəzəri baxışları müqayisəli şəkildə təhlil edilir. Bununla yanaşı, maarifçiliyin həmin dövrün ictimai-siyasi və iqtisadi tələblərinə uyğun şəkildə formalaşması əsas amillərdən biri kimi dəyərləndirilir.*

*Məqalədə müxtəlif dövrlərdə fəaliyyət göstərmiş Azərbaycan maarifçilərinin xalqın mədəni inkişaf səviyyəsini yüksəltməyə yönəlmiş ideyaları araşdırılır. Xüsusilə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə ədəbiyyat və publisistikada milli siyasi şüurun yaranması və inkişafı məsələləri işıqlandırılır. Maarifçilik hərəkatının görkəmli nümayəndələrinin xalqı savadlandırmaqla cəhalətdən uzaqlaşdırmaq istiqamətindəki fəaliyyəti yüksək qiymətləndirilir, həmçinin həmin dövrün əsas ictimai-siyasi hadisələri sistemləşdirilir.*

*Dil siyasi şüurun formalaşmasında aparıcı vasitə kimi çıxış etmiş, Cümhuriyyət dövründə ideoloji funksiyanı daşıdığı kimi, sovet dövründə isə iqtisadi və sənaye potensialının inkişafında mühüm rol oynamışdır. Beləliklə, maarifçilik alətlərinin zamanla dəyişməsi və tarixi proseslərlə cəmiyyətin mədəni inkişafı arasında qarşılıqlı əlaqə və asılılıq elmi əsaslarla təhlil edilir. Mətbuatın rolu da maarifçiliyə təkanverici qüvvə kimi nəzərdən keçirilir. Cumhuriyyət dövründə sürətlə vüsət alan milli-siyasi şüurun inkişafının rus inqilabı və sovet işğalı nəticəsində qəsb edilməsi ilə parallel sovet dövrünün təhsil və mədəniyyət sahəsindəki islahatları, əslində imperiyanın iqtisadi gücünün yüksəlməsinə xidmət etsə də, maarifçilikdə yeni dövr formalaşdırılması kimi əsaslandırılır.*

*Açar sözlər*: maarifçilik, Azərbaycan Xalq Cümhuriyyəti, dil və siyasi şüur, təhsil, milli kimlik

## *Giriş*

Azərbaycan maarifçiliyi XIX əsrin sonları və XX əsrin əvvəllərində formalaşaraq milli şüurun oyanışı, təhsilin yeniləşməsi və mədəni modernləşmənin ideoloji əsasını təşkil etmişdir. Bu dövr, xüsusilə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə nəticələnən milli ideyaların təşəkkül dövrü kimi əhəmiyyətlidir. Azərbaycan maarifçiliyinin inkişafında Həsən bəy Zərdabi, Mirzə Fətəli Axundov, Cəlil Məmmədquluzadə, Əli bəy Hüseynzadə kimi ziyalıların rolu həlledici olmuşdur. Onlar xalqın təhsil səviyyəsinin yüksəldilməsini, milli dilin qorunmasını və mədəni inkişafı maarifçilik ideyalarının əsas hədəfi kimi müəyyən etmişlər.

Maarifçiliyin məqsədi yalnız savadlandırma deyildi; o, həm də milli kimliyin və siyasi şüurun formalaşması prosesində mühüm vasitəyə çevrilmişdi. Bu dövrdə milli məktəblərin

açılması, qadınların təhsili, mətbuatın inkişafı və müasir fənlərin tədrisi maarifçilik hərəkatının əsas istiqamətlərini təşkil edirdi.

Dilin siyasi şüurun əsas vasitəsi və təfəkkür hadisəsi olaraq qəbul edilməsi, həm Qərb, həm də Azərbaycan ədəbiyyatında, fəlsəfəsində və ictimai elmlərində geniş müzakirə olunan bir mövzudur. Dil, yalnız kommunikasiya vasitəsi olmaqla qalmır, həm də sosial və siyasi düşüncənin formalaşmasında və inkişafında mühüm rol oynayır.

Saussure, Foucault, Gramsci və Chomsky kimi Qərb müəllifləri dilin yalnız kommunikasiya vasitəsi deyil, həm də ideologiyanın və güc münasibətlərinin ifadə forması olduğunu vurğulamışlar [7, s. 111]. Saussure, dilin sadəcə kommunikasiya vasitəsi olmadığını, eyni zamanda, insanların dünyanı necə düşündüklərini və necə anlayış əldə etdiklərini göstərən bir sistem olduğunu irəli sürmüşdür. O, dilin "sistem" olaraq işlədiyini, yəni hər bir sözün və ya ifadənin yalnız öz daxilində deyil, digər sözlərlə əlaqələrində mənalandığını vurğulamışdır. Ümumiləşdirsək, Saussure dilin strukturunun təfəkkürün formalaşmasında rolunu göstərmiş, Foucault dili gücün təzahürü kimi izah etmişdir [3, s. 215-226]. Gramsci hegemoniya konsepsiyasında dilin ideoloji təsirini önə çəkmiş, Chomsky isə generativ qrammatika nəzəriyyəsində dilin düşüncə sistemləri ilə əlaqəsini göstərmişdir [2, s. 9].

Bu mövzu, həm nəzəri, həm də praktiki olaraq müxtəlif müəlliflər tərəfindən müxtəlif aspektlərdən araşdırılmışdır. Bu barədə digər Qərb müəllifinin əsərlərinə istinad etsək, Foucaultın da fikrincə, dil, cəmiyyətin siyasi strukturlarını və güc münasibətlərini formalaşdırır. Foucault'un "Diskurs" anlayışı, dilin siyasi və sosial şüurun formalaşmasında mühüm rol oynadığını göstərir. O, xüsusilə dilin gücün həyata keçirilməsində və fərdlərin özlərini idarə etmələrində necə təsirli olduğunu vurğulamışdır [3, s. 117].

Gramsci, dilin ideologiyanın təzahürü olduğunu, siyasi şüurun formalaşmasında və sosial dəyişikliklərdə dilin mərkəzi rol oynadığını qeyd etmişdir. Gramsci'nin "Hegemonya" nəzəriyyəsi, siyasi gücün yalnız iqtisadi və hərbi vasitələrlə deyil, həm də mədəniyyət, dil və ideologiya vasitəsilə qorunub saxlanıldığını göstərir [4, s. 244-246].

Chomsky, dilin yalnız bir kommunikasiya vasitəsi olmadığına, həm də şüurun təbiətinin və insanların necə düşünmələrinin əsasını təşkil etdiyinə dair mülahizələr irəli sürmüşdür. Onun "generativ qrammatika" nəzəriyyəsi, dilin necə insanların təfəkkürünü və dünyanı anlama formalarını şəkilləndirdiyini izah edir. Chomsky, siyasi dilin həm də cəmiyyətin güc strukturlarını necə təşkil etdiyini və dəyişdiyini təsvir edir [2].

Bu mövzu ətrafında Azərbaycan müəlliflərinin əsərlərinə nəzər salsaq, M.F.Axundov, dilin yalnız ünsiyyət vasitəsi deyil, həm də təfəkkürün, milli kimliyin və ideologiyanın formalaşmasında mühüm rol oynadığını vurğulamışdır. Onun əsərlərində dilin düzgün işlənməsinin, həmçinin, xalqın təfəkkürünün inkişafında əhəmiyyətli olduğu məsələsi tez-tez yer alır. Dilin milli şüurun inkişafındakı rolu Axundov üçün mühüm məsələ idi [1].

Cəlil Məmmədquluzadə, dilin və ədəbiyyatın insanların siyasi və sosial şüurunun formalaşmasında oynadığı rolu göstərən bir çox satirik əsər yaratmışdır. Onun əsərlərində, dil bizim milli kimliyimiz və ən böyük dəyərimizdir [6, s. 13].

Əli bəy Hüseynzadə, dilin sosial və siyasi şüurun formalaşmasında mərkəzi rol oynadığını müdafiə etmişdir. Onun nəzəriyyələrində, dilin, milli təfəkkürün və milli kimliyin inkişafında vacib rol oynadığı qeyd edilir. Ə.B.Hüseynzadə, maarifçilik hərəkatının təbliğatçısı olaraq, dilin xalq arasında maarifləndirmə və sosial dəyişikliklər üçün istifadə edilməsinin vacibliyini vurğulamışdır [5].

Dilin siyasi şüurun əsas vasitəsi və təfəkkür hadisəsi kimi rolu, həm Qərb, həm də Azərbaycan müəlliflərinin nəzəriyyələrində mühüm yer tutduğunu görürük. Qərb fəlsəfəsində Saussure, Foucault, Gramsci və Chomsky dilin gücün və ideologiyanın təzahürü olduğunu vurğulayarkən, Azərbaycan müəllifləri, xüsusilə Axundov, Məmmədquluzadə, Hüseynzadə və

Qutqaşınlı da dilin təfəkkür və siyasi şüurun formalaşmasında mərkəzi rolunu təhlil etmişlər. Bu müəlliflərə istinad edərək, dilin yalnız bir kommunikasiya vasitəsi deyil, həm də cəmiyyətin düşüncə və güc strukturlarını formalaşdıran əsas vasitə olduğunu söyləyə bilərik. Buna əsasən, azərbaycan dilində məktəblərin açılmasını Azərbaycan maarifçiliyinin inkişafında həlledici tarix olduğunu söyləyə bilərik.

Bu dövr həm də Rus İmperiyasının təsirinin artdığı bir dövr olduğu üçün təhsil sahəsində islahatlar yalnız Azərbaycan daxilində deyil, həm də imperiya səviyyəsində baş verirdi. Azərbaycan maarifçiləri, eyni zamanda, dilin və mədəniyyətin qorunmasını da əsas məsələlərdən biri kimi qəbul edirdilər. Onlar, təhsilin yalnız bir savad əldə etmə prosesi olmadığını, eyni zamanda, milli kimliyin qorunması və inkişafı üçün də vacib olduğunu vurğulayırdılar. Buna görə də maarifçilər, təhsil sahəsində islahatları əsasən milli dilin və mədəniyyətin inkişafına yönəltməyə çalışırdılar.

XX əsrin əvvəllərində Azərbaycan maarifçiliyi böyük bir inkişaf mərhələsinə girdi. Maarifçi ziyalılar təhsilin yayılmasına və inkişafına yönəlmiş böyük işlər gördülər. Bu dövr, həm də Azərbaycanın mədəni, iqtisadi və sosial inkişafının əsasını qoyan bir dövr oldu. Həsən bəy Zərdabi, Mirzə Fətəli Axundov və digər maarifçilərin əsərləri, Azərbaycan cəmiyyətinin düşüncə və təhsil sahəsindəki böyük irəliləyişlərinə zəmin yaratdır.

Bu dövrün araşdırılması çoxsaylı alim və tədqiqatçılar tərəfindən davam etdirilib. Hələ də Azərbaycan maarifçiliyinin dərin təhlili və təsirləri barədə araşdırmalar aparılır.

XX əsrin əvvəllərində Azərbaycanda maarifçiliyin inkişafı, xüsusən də təhsil sahəsində ciddi irəliləyişlərə səbəb olmuş bir çox hadisə və hərəkatlarla müşahidə olunur. Bu dövr, həmçinin Azərbaycanın siyasi, sosial və mədəni həyatında ciddi dəyişikliklərin yaşandığı, milliyyətçilik və müstəqillik ideyalarının gücləndiyi bir dövr idi. Maarifçiliyin təkan verən hadisələri, milli kimliyin formalaşması, təhsil islahatları, yeni məktəblərin açılması, müasir təhsil metodlarının tətbiqi və milli mətbuatın inkişafı ilə sıx bağlıdır. Maarifçiliyə təkan verən başlıca hadisələr, maarifçilik hərəkatının hansı dönəminin hansı hadisə ilə əlaqələri olmasını təhlil edərkən bir sistemlilik müşahidə olunur.

Buna görə də, o dövrdə baş verən ictimai-siyasi islahatlar və Azərbaycanın Müstəqillik Hərəkatını maarıfçiliyin əsas təkanverici qüvvə olduğunu etiraf etməliyik.

XX əsrin əvvəllərində Azərbaycan, həm Rus İmperiyasının, həm də Osmanlı İmperiyasının təsiri altındaydı. Bu dövrdə Azərbaycanda maarifçilik hərəkatı, yalnız təhsil və mədəniyyət sahəsində deyil, həm də siyasətdə və sosial strukturda da yeniliklərin yaranmasına səbəb oldu. 1905-ci ildə baş verən Rus İnqilabından sonra, Azərbaycanda da sosial və mədəni dəyişikliklər sürətlənmişdi.

M.F.Axundov, H.B.Zərdabi dilin milli kimlik və siyasi şüurun formalaşmasında mərkəzi rol oynadığını vurğuladığı kimi C.Məmmədquluzadə və Ə.B.Hüseynzadə də mətbuat vasitəsilə xalqın düşüncə tərzini dəyişdirməyə, təhsili milli dil üzərində qurmağa çalışmışlar.

XX əsrin əvvəllərində baş verən tarixi hadisələrlə maarifçilik hərəkatını arasında reqressiya analizi aparsaq, maarifçiliyin (1905–1920) mərhələsini aşağıdakı hadisələrlə əlaqələndirə bilərik:

1905-ci il Rus inqilabı, Azərbaycanda milli oyanış və maarifçilik proseslərini gücləndirdi. 1875-ci ildə nəşr edilən "Əkinçi" qəzeti, 1906-cı ildə "Füyuzat" jurnalı və 1910-cu ildə "İrşad" qəzeti maarifçilik ideyalarının əsas daşıyıcısına çevrildi. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ilə milli təhsil sistemi dövlət siyasətinin əsas istiqamətini təşkil etdi.

## *Nəticə*

XX əsrin əvvəllərində Azərbaycan maarifçiliyi milli şüurun formalaşması və dövlətçilik ideyalarının yaranmasında həlledici rol oynadı. Sovet Rusiyasının Azərbaycan Xalq

Cümhuriyyətini işğal etməsi, Azərbaycanda həyata keçirilən maarif və təhsil islahatlarını ciddi şəkildə əngəllədi. İşğaldan sonra Sovet hakimiyyəti tərəfindən tətbiq olunan siyasət, ilk növbədə, milli təhsil sistemini və maarifçilik hərəkatını əngəlləyərək, daha çox Sovet ideologiyasına uyğunlaşdırılmasına səbəb oldu.

Dil, bu prosesdə yalnız ünsiyyət vasitəsi deyil, həm də siyasi və mədəni kimliyin daşıyıcısına çevrildi. Maarifçilərin fəaliyyəti nəticəsində milli təhsil və mətbuat formalaşdı, müasir Azərbaycan cəmiyyətinin ideoloji və elmi təməlləri qoyuldu.

ƏDƏBİYYAT

1. Axundov, M.F. Əsərlər. III cild, Şərq-Qərb, Bakı, “Elm”, 2005, 296 s.
2. Chomsky, N. Aspects of the Theory of Syntax. MIT Press, 1965, 251 s.
3. Foucault, M. The Archaeology of Knowledge and the Discourse on Language (A.M.Sheridan Smith, Trans.). London: Tavistock Publications.. 1972, 254s.
4. Gramsci, A. Selections from the Prison Notebooks. New York: International Publishers, 1971, 483 s.
5. Hüseynzadə, Ə.B. İrşad. Bakı.1910.
6. Məmmədquluzadə C. Əsərləri. Dörd clddə. Bakı, “Öndər”, 2004, I cild, 664 s.
7. Saussure, F. Course in General Linguistics. London: McGraw-Hill. 1916, 336 s.
8. Zərdabi, H. B. Əkinçi, 1875, Bakı. №56.
9. Əliyev, E.M. Azərbaycanın müstəqilliyi və təhsil siyasəti, Bakı: “Elm”, 2005.
10. Əhmədov, M. Azərbaycan SSR-də maarifin inkişafı. Bakı: “Maarif”, 1984.

УДК 37(479.24)

*Садагат Абдул кызы Фатуллаева*
*Сумгаитский Государственный Университет*
*Институт Философии и Социологии НАНА*

## ФОРМИРОВАНИЕ АЗЕРБАЙДЖАНСКОГО ПРОСВЕТИТЕЛЬСТВА В НАЧАЛЕ XX ВЕКА И РОЛЬ ЯЗЫКА КАК ОСНОВНОГО СРЕДСТВА ПОЛИТИЧЕСКОГО СОЗНАНИЯ

*РЕЗЮМЕ*

*Ключевые слова*: просвещение, Азербайджанская Демократическая Республика, язык и политическое сознание, образование, национальная идентичность

В статье исследуется процесс формирования азербайджанского просвещения в начале XX века, его идейные основы и роль языка в развитии политического сознания. Исследование показывает, что азербайджанское просветительское движение стало важным этапом в формировании национальной идентичности, общественного мышления и социальной осознанности. Теоретические взгляды западных и отечественных авторов на идеологическое и общественное воздействие языка анализируются в сравнительном контексте. Наряду с этим подчеркивается, что формирование просвещения в соответствии с социально-политическими и экономическими требованиями того времени было одним из ключевых факторов его развития.

В статье рассматриваются идеи азербайджанских просветителей разных периодов, направленные на повышение уровня культурного развития народа. Особое внимание

уделяется эпохе Азербайджанской Демократической Республики, когда в литературе и публицистике освещались процессы становления и развития национального политического сознания. Деятельность выдающихся деятелей просвещения, стремившихся посредством образования вывести народ из невежества, высоко оценивается; систематизируются основные социально-политические события этого периода.

Язык выступал ведущим инструменто формирования политического сознания: если в период Республики он выполнял идеологическую функцию, то в советскую эпоху сыграл значительную роль в развитии экономического и промышленного потенциала. Таким образом, анализируется взаимосвязь между изменением просветительских инструментов, историческими процессами и культурным развитием общества. Отдельно подчеркивается роль языка и печати как движущей силы просвещения. Несмотря на подавление национального сознания в результате Русской революции и советской оккупации, реформы в образовании и культуре рассматриваются как этап формирования нового периода просветительской мысли.

UDC 37(479.24)

*Sadaqat Abdul Fatullayeva*
*Sumgayit State University*
*Institute of Philosophy and Sociology,*
*Azerbaijan National Academy of Sciences (ANAS)*

## FORMATION OF AZERBAIJANI ENLIGHTENMENT AT THE BEGINNING OF XX CENTURY AND THE ROLE OF LANGUAGE AS THE MAIN MEANS OF POLITICAL CONSCIOUSNESS

*SUMMARY*

*Key words*: enlightenment, Azerbaijan Democratic Republic, language and political consciousness, education, national identity

The article explores the formation of Azerbaijani enlightenment at the beginning of XX century, its ideological foundations, and the role of language in the development of political consciousness. The study demonstrates that the Azerbaijani enlightenment movement represented a crucial stage in shaping national identity, social thought, and collective awareness. Theoretical perspectives of both Western and Azerbaijani scholars on the ideological and social influence of language are analyzed in a comparative framework. Furthermore, the evolution of enlightenment in accordance with the socio-political and economic demands of the era is identified as one of its key driving factors.

The article examines the ideas of Azerbaijani enlighteners from various periods who sought to elevate the nation’s cultural level. Particular attention is devoted to the era of the Azerbaijan Democratic Republic, during which literature and journalism reflected the emergence and growth of national political consciousness. The efforts of prominent intellectuals to liberate the people from ignorance through education are highly valued, and the main socio-political developments of the period are systematized.

Language is viewed as a central instrument in shaping political consciousness: while it carried an ideological function during the Republic, in the Soviet era it played a significant role in strengthening the country’s industrial and economic potential. Thus, the article analyzes the correlation between the evolution of enlightenment tools, historical processes,

and cultural development. The role of language and the press as driving forces of enlightenment is also emphasized. Despite the suppression of national consciousness following the Russian Revolution and Soviet occupation, educational and cultural reforms are interpreted as marking the emergence of a new stage in enlightenment thought.

***Daxil oldu: 29.10.2025-ci il***